**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ÖMÜRBOYU TƏHSİLİN TƏŞKİLİ ÜZRƏ İŞİN SİSTEMİ

İxtisas: 5802.01 – "Təhsilin təşkili və planlaşdırılması"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Abbas İlham oğlu Babayev**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2026**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: kimya üzrə fəlsəfə doktoru
**Rüfət Eyvaz oğlu Əzizov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Fərahim Balakişi oğlu Sadıqov**

pedaqogika üzrə fəlsəfə doktoru
**Lalə Akif qızı Məmmədli**

pedaqogika üzrə fəlsəfə doktoru
**Zülfiyyə Şəmsəddin qızı Şiriyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: fizika-riyaziyyat elmləri doktoru, professor
____________ **Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru
____________ **Gülbəniz Vaqif qızı Sultanova**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
____________ **Akif Nurağa oğlu Abbasov**

XƏZƏR UNİVERSİTETİ MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏT 1991

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasının beş strateji istiqamətindən biri ömürboyu təhsili təmin edən təhsil sisteminin yaradılmasıdır. Adıçəkilən Strategiya ilə yanaşı, ömürboyu təhsil istiqamətinə ölkənin inkişaf vektorlarını müəyyənləşdirən müxtəlif sənədlərdə geniş yer ayrılması, bu istiqamətin artan əhəmiyyətinin bariz göstəricisidir. Belə sənədlər arasında "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i və onun əsasında hazırlanmış "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı, "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası"nı, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə bir neçə Strateji Yol Xəritəsini xüsusilə vurğulamaq olar. Ömürboyu təhsilin hər kəs üçün əlçatan edilməsi ali təhsilin və peşə təhsilin təşkilinə dair minimal tələblərdən biri kimi müəyyən edilərək müvafiq olaraq 2010-cu ildə təsdiq edilmiş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı" və 2019-cu ildə təsdiq "Peşə təhsilinin dövlət standartları"nda da yer almışdır.

Ömürboyu təhsilin təşkilinin əhəmiyyətinin dövlət səviyyəsində tanınmasına baxmayaraq, ömürboyu təhsili sistemi dedikdə, məhz nəyin nəzərdə tutulduğu, həmçinin belə sistemin yaradılmasında təhsilin müxtəlif pillələrinin rolunun və vəzifələrinin nədən ibarət olduğu izahsız qalmışdır. Belə ki, təhsilin inkişafı üzrə Dövlət Strategiyası və onun həyata keçirilməsi ilə bağlı qəbul edilmiş Fəaliyyət Planında ömürboyu təhsilə imkan verəcək təhsil sisteminin yaradılması üzrə tədbirlər göstərilsə də, belə sistemin mahiyyəti ilə bağlı aydın izah verilməmişdir. 2018-ci il 18 iyul tarixində təsdiq edilmiş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"ndə də (AzMKÇ) ömürboyu təhsil anlayışına tərifinin verilməsinə baxmayaraq, ömürboyu təhsili təmin edən təhsil sistemi olaraq nəyin nəzərdə tutulduğu və bu sistemin

təşkilində müxtəlif təhsil pillələrinin rolunun və vəzifələrinin nədən ibarət olduğuna aydınlıq gətirilməmişdir.

Bu konteksdə, xüsusilə Azərbaycanda ömürboyu təhsilin əsasən əmək bazarı ilə bağlı çağırışlar fonunda təşviq olunduğunu nəzərə alaraq, yüksək səriştələrə malik kadrların əsas təminatçısı qismində çıxış edən və ömürboyu təhsilin təşkilində rolu və əhəmiyyəti xüsusilə vurğulanan ali təhsil müəssisələrinin (ATM-lərin) ömürboyu təhsilin təşkili istiqamətində vəzifələrinin nədən ibarət olduğu və onların ömürboyu təhsili təmin edən təhsil sisteminə necə töhfə verə biləcəkləri kimi məsələlər də aydınlaşdırılmamışdır.

Qeyd olunanları nəzərə alaraq, tədqiqat mövzusunun aktuallığını səciyyələndirən aşağıdakı amilləri xüsusilə qeyd etmək lazımdır:

– normativ-hüquqi, həmçinin ölkənin sosial-iqtisadi inkişafına dair müxtəlif sənədlərdə ömürboyu təhsil anlayışına çoxsaylı istinadlara və ömürboyu təhsilin əmək bazarında müşahidə olunan kadr çatışmazlığı problemlərinin əsas həllərindən biri kimi göstərilməsinə baxmayaraq, bu təhsil üzrə ölkə səviyyəsində gələcəyə baxışı, təhsil pillərindən gözləntiləri və sair məsələləri özündə əks etdirən hər hansı bir konsepsiya sənədinin və ya yol xəritəsinin olmaması və bunun yol açdığı konseptual və praktik boşluqlar;

– ölkə ATM-lərinin ənənəvi tədris və tədqiqat fəaliyyətlərinə əlavə olaraq, ömürboyu təhsilin təşkili istiqamətində fəaliyyətə nə dərəcədə hazırlıqlı olduqlarının, həmçinin ömürboyu təhsili təmin edən təhsil sisteminin formalaşdırılması üzrə görülən işlərin nəticəliliyin bu günədək elmi metodlarla araşdırılmaması;

– ali təhsil sahəsində dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin yaradılması və onun vəzifələrinə ömürboyu təhsil istiqamətində tədbirlərin görülməsinin daxil edilməsi və ali təhsil pilləsinin ömürboyu təhsilə töhfəsinin, habelə ATM-lərdə ömürboyu təhsilin təşkili üzrə işin sisteminin öyrənilməsi zərurəti;

– ömürboyu təhsilin əhəmiyyətinə baxmayaraq, Azərbaycanda, xüsusilə yaşlılar üçün, ömürboyu öyrənmə imkanlarının məhdud olduğuna dair digər tədqiqatlar çərçivəsində əldə olunan nəticələr.

Aktuallığına baxmayaraq, mövzu Azərbaycanda elə də geniş araşdırılmamışdır. Problemlə bilavasitə əlaqəli əsərlərin sayı məhdud olsa da, diqqətə çatdırılmalıdır ki, pedaqoqlardan A.N.Abbasov, Ə.M.Abbasov, H.H.Əhmədov, P.B.Əliyev, M.İ.İlyasov, A.O.Mehrabov, F.B.Sadıqov, N.M.Kazımov, Ə.Ə.Ağayev, H.Ə.Əlizadə və başqalarının əsərləri təhsilin idarə olunması məsələlərini bu və ya digər dərəcədə əhatə edir.

Azərbaycan Respublikasının Təhsil İnstitutunda (ARTİ) 2022-ci ildə aparılmış tədqiqat tədqiq etdiyimiz problemlə bilavasitə bağlıdır. Elm və Təhsil Nazirliyinin və 16 ali təhsil müəssisələrinin nümayəndələrin iştirak etdiyi, "ATM-lərin ömürboyu təhsil konsepsiyasının tətbiqi təcrübələri" adlı araşdırmada ATM-lər tərəfindən ömürboyu təhsil konsepsiyasının necə səciyyələndirildiyi, ömürboyu təhsil imkanlarının təmin edilməsi üzrə təşkilati struktur, təklif olunan proqramlar və digər aspektlər barədə ümumi məlumat verilmişdir.

Azərbaycanın ali təhsil sistemi, o cümlədən onun inkişaf tarixi, həyata keçirilən islahatlar və ATM-lər ilə bağlı digər məsələlər barədə ümumi təsəvvürün formalaşdırılması baxımından H.İsaxanlı və A.Paşayevanın "Azərbaycanda ali təhsilin transformasiyası, institusional müxtəliflik və ali təhsil müəssisələrinin tipologiyası" adlı əsəri önəmlidir.

İ.H. Cəbrayılov və N.Məmmədovun "Ömürboyu təhsil kontekstində kouçinq şəxsi keyfiyyətləri kamilləşdirən pedaqoji vasitə kimi" adlı məqaləsi ömürboyu təhsil mövzusuna həsr edilmişdir. Məqalə ali təhsil ilə bağlı olmasa da, ömürboyu təhsil sisteminə və onun təşkilinə baxış bucağının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Xarici ədəbiyyatda ömürboyu təhsil mövzusu müxtəlif cəhətlərdən öyrənilmişdir. Xüsusilə YUNESKO-nun Ömürboyu Öyrənmə İnstitutunun çoxsaylı nəşrlərini qeyd etmək məqsədəuyğundur. Həmin nəşrlər arasında biz "Ömürboyu Öyrənməni Reallığa Çevirmək: Təlimatlar" (2022), "Ali təhsildə ömürboyu təhsilin beynəlxalq tendensiyaları" və "Ali təhsildə ömürboyu təhsilin həyata keçirilməsinin institusional təcrübələri" (2023) adlı əsərlərdən tədqiqat zamanı faydalanmışıq. Adıçəkilən

mənbələrdə ömürboyu təhsil anlayışının tərifinin, ömürboyu təhsili təmin edən təhsil sisteminin elementlərinin, bu sistemdə ATM-lərin rolunun, ATM-lərdə ömürboyu təhsilin təşkili üzrə siyasi mühitin, o cümlədən qanunvericilik çərçivəsinin əlverişliliyinin, institusional səviyyədə görülməli işlərin və təhsilə çıxış imkanlarının genişləndirilməsi yollarının ətraflı təhlili verilmişdir.

Türkdilli ədəbiyyat nəzərdə keçirilmişdir. Türkiyənin ATM-lərində ömürboyu təhsili təmin edən sistem ətraflı təhlil edilmişdir. Osman Titrek, Demet Zafer Güneşin və Gözde Sezenin "Ali təhsil və ömürboyu öyrənmə: Model təklifi" məqaləsi diqqət mərkəzində dayanmışdır. Məqalədə ali təhsil pilləsində ömürboyu təhsilin uğurla həyata keçirilməsi üçün icrası zəruri hesab edilən tədbirlər arasında ali təhsilə çıxış imkanlarının genişləndirilməsi, tələbə mərkəzli xidmətlərin qurulması, qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş biliklərin tanınması mexanizmlərinin təkmilləşdirilməsi, milli kvalifikasiyalar çərçivəsinin inkişaf etdirilməsi və işəgötürənlərlə əməkdaşlığın genişləndirilməsi vurğulanmışdır.

Ömürboyu təhsil mövzusunda rusdilli elmi mənbələrin təhlili zamanı isə müəyyən edilmişdir ki, həmin tədqiqatların əsas predmetlərindən birini ömürboyu təhsilin bir anlayış kimi təhlili təşkil edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti ATM-lərdə ömürboyu təhsilin təşkili prosesidir. Tədiqatın predmetini isə ATM-lərdə ömürboyu təhsilin təşkili üzrə işin sistemi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ömürboyu təhsilin təşkili üzrə işin mövcud vəziyyətini, onun güclü və zəif tərəflərini, o cümlədən bu işin inkişafına şərait yaradan və ya maneə törədən amilləri müəyyən edərək qiymətləndirmək, ömürboyu təhsilin təşkili üzrə işin sistemini formalaşdırmaqdan ibarətdir.

Bu məqsədi həyata keçirmək üçün tədqiqatın aşağıdakı vəzifələri müəyyənləşdirilmişdir:

– ömürboyu təhsil anlayışının mahiyyətinə, problemin elmi-nəzəri əsaslarına aydınlıq gətirmək;

– ömürboyu təhsilin inkişaf tarixinə nəzər salmaq, ömürboyu təhsili aktual edən sosial-iqtisadi konteksti müəyyənləşdirmək və

kontekst baxımından Azərbaycan və xarici ölkə təcrübələrinin müqayisəli təhlilini aparmaq;

– ali təhsildə ömürboyu təhsilin təşkili işinin metodologiyasını, o cümlədən ömürboyu təhsilin təşkili işinin prinsip, komponent və vasitələrini aşkarlamaq;

– ATM-lərdə ömürboyu təhsilin təşkili işinin inkişaf mərhələlərini fərqləndirmək;

– ömürboyu təhsilin təşkilinin təcrübi məsələlərini əhatə etmək;

– ömürboyu təhsilin təşkilinə şərait yaradan və maneə törədən amilləri, habelə ömürboyu təhsilin təşkili istiqamətində ATM-lərin güclü və zəif tərəflərini müəyyən etmək.

**Tədqiqat metodları.** Araşdırmalar zamanı aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir: nəzəri təhlil, müsahibə, söhbət, müşahidə, induksiya və deduksiya, riyazi-statistik metodlar.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

– ömürboyu təhsil, belə təhsilə şərait yaradan təhsil sistemi və onun formalaşdırılmasında təhsilin müxtəlif pillələrinin vəzifələri barədə məsələləri özündə birləşdirən və dövlət səviyyəsində hər hansı bir konsepsiya sənədinin olmaması, ömürboyu təhsil anlayışının əlavə təhsilə bərabər tutulmasına, onun təhsil sisteminin təşkili prinsiplərindən biri kimi qəbul olunmamasına və ömürboyu təhsilin təşkili istiqamətində tədbirlərin əhatə dairəsinin məhdud olmasına yol açır;

– ömürboyu təhsilin təşviqi sosial-iqtisadi sahələrdən gələn təzyiqlər və çağırışlar fonunda aktuallaşır və sosial-iqtisadi kontekst ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili işininin inkişaf səviyyəsinə təsir göstərir;

– ali təhsil pilləsində təhsilin keyfiyyəti ilə bağlı çağırışlar ATM-lərin əsas fəaliyyət istiqamətlərinə – bakalavriat və magistratura səviyyələrində tədrisin təşkilinə, aid edilməyən sahələr, o cümlədən ömürboyu təhsilin təşkili işi üzrə əhəmiyyətli gözləntilərin formalaşmaması ilə müşayiət olunur. Beləliklə, ömürboyu təhsilin təşkili istiqamətində fəallıq nümayiş etdirilsə də, bu sahədə iş, adətən, ATM-lərin əsas fəaliyyət istiqamətlərindən təcrid olunmuş formada təşkil edilir və səciyyəvi bir struktur bölmə

tərəfindən qısamüddətli sertifikat proqramlarının təşkili ilə məhdudlaşır;

– ömürboyu təhsilin təşkili işinin nəticəliliyi ATM-lərin özlərinin yanaşma və siyasətlərindən asılı olduğu kimi, onların birbaşa səlahiyyətləri xaricində olan – təhsil sahəsini tənzimləyən normativ hüquqi baza və sair siyasət təşəbbüslərindən – amillərdən də əhəmiyyətli dərəcədə asılıdır;

– ATM-lərin rəqabətqabiliyyətli ömürboyu təhsil məkanlarına çevrilməsinə xarici amillərin məhdudlaşdırıcı təsirləri daha nəzərəçarpandır.

**Tədqiqatın elmi yeniliyi.** Ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili üzrə işin sistemi yaradılmışdır. Ömürboyu təhsillə bağlı beynəlxalq səviyyədə qəbul edilmiş elmi-nəzəri çərçivə və yanaşmalar əsas götürülməklə Azərbaycan nümunəsində elmi metodlardan faydalanmaqla bu sistem formalaşdırılmışdır. Bu sistemə daxildir: problemin mahiyyəti, məqsəd və vəzifələri, ömürboyu təhsilin həyata keçirilməsinin səmərəli forma və yolları, prinsip və metodları.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti onunla əsaslandırılır ki, aparılan tədqiqat pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcəkdir. Eyni zamanda, ömürboyu təhsillə bağlı Azərbaycan Respublikası səviyyəsində konsepsiya sənədinin və yol xəritəsinin hazırlanmasına qərar veriləcəyi təqdirdə, onun nəzəri bazasının formalaşdırılması üçün bu tədqiqat önəmli rol oynana bilər.

Dissertasiyanın praktik əhəmiyyətinə gəldikdə isə, tədqiqatın nəticələri təhsilin inkişafı üzrə Dövlət Strategiyasının ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması haqqında dördüncü strateji istiqaməti ilə bağlı fokuslanmalı sahələri müəyyənləşdirməklə birbaşa adıçəkilən strateji istiqamətin icrası yönündə görülən işlərin nəticəliliyinin artırılmasına xidmət edir. Bundan əlavə, tədqiqat nəticələri ATM-lərdə ömürboyu təhsil işinin institusionallaşdırılması, onun ATM-in ənənəvi fəaliyyət istiqamətlərinə inteqrasiyası və keyfiyyətcə daha üstün mərhələyə daşınması üçün diqqət göstərilməli sahələri özündə birləşdirir. Bu, ali təhsil sahəsində dövlət siyasətinin keyfiyyətcə yeni mərhələyə qədəm

qoyduğu və Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin vəzifələrinə AzMKÇ-nin tətbiqi məqsədilə tədbirlərin görülməsinin aid edildiyi bir dövrdə, xüsusilə böyük praktik əhəmiyyət daşıyır. Eyni zamanda tədqiqat nəticələrinin ölkədə kadr qıtlığının aradan qaldırılması və yüksək rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılması üçün ömürboyu öyrənmə imkanlarının genişləndirilməsi və bu prosesə ATM-lərin töhfəsinin artırılması üzrə dəlillərə əsaslanan siyasətlərin həyata keçirilməsi üçün praktik faydaları olacaqdır. Eyni zamanda tədqiqat nəticələrindən təhsilin idarə olunması üzrə proqramlar təklif edən təhsil müəssisələrində müvafiq fənlərin tədrisi prosesində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin məzmununu və əsas elmi müddəalarını əks etdirən 1-i xarici olmaqla, 6 elmi məqalə, 3-ü beynəlxalq olmaqla, 6 elmi konfransın materiallarında tezisləri çap olunaraq aprobasiyadan keçmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, özündə 6 paraqrafı birləşdirən 2 fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından, əlavələrdən, ixtisarların və şərti işarələrin siyahısından ibarətdir. Dissertasiyanın ümumi həcmi (titul səhifəsi, mündəricat, mətndəki boşluqlar, şəkillər, qrafiklər, cədvəllər, istifadə edilmiş ədəbiyyat siyahısı, əlavələr və ixtisarların və şərti işarələrin siyahısı istisna edilməklə) 123 səhifə, 251 625 işarədən ibarətdir. Giriş hissəsi – 12 səhifə, 22 441 işarəni, I fəsil – 52 səhifə, 108 045 işarəni, II fəsil – 51 səhifə, 104 875 işarəni, nəticə hissəsi – 8 səhifə, 16 264 işarəni əhatə edir. Dissertasiyada istifadə edilmiş ədəbiyyat siyahısı – 23 səhifədən, əlavələr – 3 səhifədən, ixtisarların və şərti işarələrin siyahısı isə – 1 səhifədən ibarətdir.

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, elmi ədəbiyyatda işlənmə səviyyəsi barədə məlumat verilmişdir. Eyni zamanda tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas elmi müddəaları, elmi yeniliyi, praktik və nəzəri əhəmiyyəti öz əksini tapmışdır.

Tədqiqatın **“Problemin elmi-nəzəri əsasları”** adlı I fəslini üç paraqraf təşkil edir. I fəslin ***“Ömürboyu təhsil anlayışının mahiyyəti, məzmunu və inkişaf tarixi”*** adlı birinci paraqrafında ömürboyu təhsil anlayışının inkişaf tarixinə nəzər yetirilərək onun elmi-nəzəri bazası öyrənilir, ömürboyu təhsil anlayışının tərifi və xarakterik xüsusiyyətləri verilir və ömürboyu təhsil anlayışı ilə əlavə təhsil anlayışları arasındakı fərqlər göstərilir. Elmi-nəzəri əsasları XX əsrin ikinci yarısına söykənən ömürboyu təhsil anlayışından ilk dəfə sistemli şəkildə 1972-ci il tarixli Faure hesabatı kimi tanınan “Öyrənmək üçün var olmaq: Bu günün və sabahın təhsil dünyası” adlı nəşrdə istifadə olunmuşdur[1]. Nəşrin müəlliflərinə görə, hər bir fərd bütün həyatı boyunca öyrənməyə davam etmək imkanlarına malik olmalıdır və təhsil sistemi buna şərait yaratmalıdır. 1996-cı ildə dərc olunmuş və ömürboyu təhsil üzrə nəzəri əsasların inkişafına ciddi töhfə vermiş digər bir baza əsər Delor hesabatı kimi tanınan “Öyrənmək: İçimizdəki xəzinə” adlı əsərdir[2]. Hesabat müəlliflərinin iddiasına görə, təhsilin əsas hədəflərindən biri insanları necə öyrənmək lazımdır, yəni müstəqil öyrənmək bacarıqları ilə təmin etmək olmalıdır. Bununla əlaqədar adıçəkilən nəşrdə ömürboyu təhsilin dörd prinsipi irəli sürülür. Sonradan ömürboyu təhsil anlayışının əsas dayaq nöqtələri kimi qəbul olunacaq həmin prinsiplərə öyrənməyi öyrənmək, etməyi öyrənmək, birgə yaşamağı öyrənmək və var olmağı öyrənmək aid edilir.

---

[1] Learning to be: the world of education today and tomorrow / E.Faure [et al]. – Paris: UNESCO, – 1972. – 313 p.

[2] Learning: the treasure within: report to UNESCO of the International Commission on Education for the Twenty-First Century / J.Delors [et al]. – Paris: UNESCO Publishing, – 1996. – 266 p.

Ömürboyu təhsil ilə əlavə təhsil terminləri arasındakı fərqlərə gəldikdə isə, dissertasiyada göstərilir ki, adıçəkilən terminlər ilk baxışdan eyni görünsələr də, əslində fərqli məna daşıyırlar. Ömürboyu təhsil yaşından, əvvəlki təhsilindən, məşğulluq səviyyəsindən və s. amillərdən asılı olmayaraq insanların müxtəlif məqsədlərə çatmaq üçün formal, qeyri-formal və informal təhsil formaları vasitəsilə bilik və bacarıqlarını artırmasını, təhsilin hər kəs üçün əlçatan edilməsini, müxtəlif yolları ilə qazanılmış öyrənmə nəticələrinin tanınmasını və belə tanınma nəticəsində fərdlər üçün alternativ təhsil trayektoriyalarının yaradılmasını hədəfləyir. Belə öyrənmə istənilən məkanda baş verə bilər. Əlavə təhsil isə ömürboyu təhsil anlayışı ilə müqayisədə daha məhdud təhsil təcrübəsini nəzərdə tutur. Belə ki, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa və AzMKÇ-ə əsasən, əlavə təhsilin məqsədi peşə, orta ixtisas və ya ali təhsil pillələrini bitirmiş şəxslərin öz səriştələrini daha da təkmilləşdirməsi və yeniləşdirməsi üçün imkanların yaradılmasıdır. Əlavə təhsil proqramlarının müəyyən başlanğıc və bitmə nöqtəsi var və onu müvəffəqiyyətlə tamamlamış şəxslərə müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada təhsil sənədi verilir. Bundan əlavə, belə təhsil yalnız müvafiq normativ aktların tələblərinə cavab verən müəssisələrdə təşkil oluna bilər və onun müəyyən edilmiş altı istiqaməti var.

I fəslin ***"Dünyada və Azərbaycanda ömürboyu təhsili aktuallaşdıran sosial-iqtisadi kontekst və onun ali təhsildə ömürboyu təhsilin təşkilinə təsiri"*** adlı ikinci paraqrafında ömürboyu təhsil anlayışının irəli sürüldüyü ölkələrin sosial-iqtisadi konteksti ilə Azərbaycandakı sosial-iqtisadi kontekstin müqayisəli təhlili verilir. Təhlil nəticəsində müəyyən edilmişdir ki, ömürboyu təhsil anlayışı inkişaf etmiş Qlobal Şimal ölkələrində, sürətli iqtisadi artım və bilik iqtisadiyyatına keçid nəticəsində yüksəkixtisaslı kadrlara artan tələbat, habelə mənfi demoqrafik proseslər fonunda irəli sürülmüş və getdikcə aktuallıq qazanmışdır. Həmin ölkələrdə müşahidə olunan ali təhsin kütləviləşməsi prosesi isə, öz növbəsində, ATM-lərdən ömürboyu təhsilin təminatçıları kimi gözləntiləri artırmışdır. Azərbaycanda isə, ömürboyu təhsilin mövcud kadr bazasının əmək bazarının tələblərinə kifayət qədər cavab verməməsi fonunda təşviq olunduğu müşahidə

edilmişdir. Lakin inkişaf etmiş Qlobal Şimal ölkələrindən fərqli olaraq, respublikamızın əmək bazarında aşağı ixtisaslı kadrların çoxluq təşkil etməsi və məşğulluq imkanlarının əsasən əmək tutumlu, lakin aşağı məhsuldarlığı ilə səciyyələnən sahələrdə cəmlənməsi kimi amillər ömürboyu təhsil sisteminə çox da böyük tələbatın olmamasına şərait yaratmışdır. Qeyd olunanlar ilə yanaşı, Azərbaycanda ali təhsilin hələ yeni-yeni kütləviləşməyə başlaması və ATM-lərdə təhsilin keyfiyyətinin təmin olunması kimi təməl məsələlər ömürboyu təhsilin təmin edilməsi istiqamətində gözləntilərin aşağı səviyyədə olmasına gətirib çıxarmışdır.

I fəslin ***"Ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili üzrə işin elmi-metodoloji əsasları"*** adlı sonuncu paraqrafında ömürboyu təhsili təmin edən təhsil sistemində ATM-lərin roluna aydınlıq gətirilir və ömürboyu təhsilin təşkili işinin metodologiyası, yəni ATM-lərdə ömürboyu təhsilin təşkilinin əsasını formalaşdıran prinsiplərin və komponentlərin, həmçinin işin səmərəli təşkili məqsədilə tətbiq olunan vasitələrin məcmusu öyrənilir. Həmin metodologiyanın dissertasiyanın növbəti fəslində aparılan təhlillər üçün konseptual baza formalaşdırdığı nəzərə alınaraq, onun başa düşülən olması üçün paraqrafa aşağıdakı şəkil əlavə edilmişdir:




**Şəkil 1.3.1 – Ali təhsildə ömürboyu təhsilin təşkilinin prinsipləri, komponentləri və vasitələri**

Şəkildən göründüyü kimi, ali təhsildə ömürboyu təhsilin təşkili işinin əsas prinsiplərini formal təhsilin digər pillə və səviyyələrində olduğu kimi, ali təhsilin əlçatanlığının və ATM-lərdə təhsilin cəlbediciliyinin artırılması təşkil edir. İkinci prinsipdə cəlbedicilik dedikdə, ATM-lərdə təhsil almağa fərdlərin motivasiyasının yaranması nəzərdə tutulur. Ömürboyu təhsilin təşkilinin səciyyəvi vasitələrinə keçid etməzdən əvvəl bildirmək lazımdır ki, elmi ədəbiyyatda belə vasitələrin iki geniş kateqoriya üzrə təsnifatı aparılır. Xarici komponent adlanladırılan birinci komponentə əsasən ATM-lərin qərarvermə səlahiyyətləri xaricində olan vasitələr cəmlənmişdir.

Xarici vasitələrin əhəmiyyəti onunla əsaslandırılır ki, hər bir istiqamətdə olduğu kimi ömürboyu təhsilin təşkili və təşviqi istiqamətində də ATM-lərin görə biləcəyi işlər onlara verilmiş səlahiyyətlərdən, eləcə də ölkə səviyyəsində ömürboyu təhsilin təşkili məqsədilə həyata keçirilən digər tədbirlərin mövcudluğundan və nəticəliliyindən xeyli dərəcədə asılıdır. Bu komponentə əsasən ömürboyu təhsilin təşkilinə bilavasitə və bilvasitə təsir göstərən müvafiq normativ hüquqi baza, qeyri-formal və informal təhsilin nəticələrinin tanınması mexanizmləri, təhsildə kredit toplanması və transferi sistemi, milli kvalifikasiyalar sistemi, məsləhət və dəstək xidmətləri cəmlənmişdir.

Daxili komponent isə, özündə ömürboyu təhsilin təşkili və təşviqi istiqamətində ATM-lərin özlərindən asılı institusional vasitələri ehtiva edir. Həmin komponentə əsasən ATM-lərin müxtəlif maraqlı tərəflərlə strateji əlaqələr formalaşdırılması, təhsil müəssisəsinin tədqiqat fəaliyyəti, təlim və tədris işinin təşkili, idarəetmə mexanizmləri və tələbə dəstək xidmətləri toplanmışdır.

Paraqrafda yuxarıda sadalanan elementlərin bir-biri ilə necə kəsişdiyi və ömürboyu təhsilin təşviqinə necə xidmət göstərildiyi öz əksini tapmışdır. Vurğulanır ki, ömürboyu təhsil sisteminin hər bir vasitəsi digərini tamamlayır və bir vasitənin nəticəliliyi digər vasitənin işləkliliyindən çox asılıdır.

Paraqrafda, həmçinin, ömürboyu təhsilin təşkili işinin adaptasiya, təşkilata inteqrasiya və təşkilati mədəniyyətə inteqrasiya adlandırılan üç inkişaf mərhələsinin xarakterik xüsusiyyətlərinin

təhlili aparılır. Bununla əlaqədar göstərilir ki, adaptasiya mərhələsində qərarlaşan ATM-lər ömürboyu təhsil anlayışının mahiyyətini tam başa düşmədən və onu əksər hallarda əlavə təhsil anlayışına bərabər tutaraq, ömürboyu təhsilin təşkili istiqamətində fəaliyyətlərini qısamüddətli sertifikasiya kursları və oxşar proqramların təşkili ilə məhdudlaşdırırlar. Adətən belə proqramların icrası müəssisələrdə fəaliyyət göstərən əlavə təhsilin təşkilinə məsul struktur bölmələrə həvalə edilir. Həmin istiqamətlə əlaqədar uzunmüddətli bir baxış və ya plan olmadığından pərakəndəlik müşahidə olunur. Nəticədə göstərilən fəaliyyətlər ATM-in ənənəvi fəaliyyət istiqamətlərinə inteqrasiya edilmir və həmin istiqamətlərdən kənarda qalır.

Ömürboyu təhsilin təşkili işi təşkilata inteqrasiya mərhələsi ilə səciyyələnən ATM-lər əlavə təhsilin təşkili istiqamətində fəaliyyətləri nəticəsində yiyələndikləri təcrübəyə əsaslanaraq ömürboyu təhsil fəaliyyəti ilə bağlı qarşılarına hədəflər qoyurlar. Həmin hədəflərin müəssisənin strateji inkişaf planı və ya digər rəsmi sənədlərində öz ifadəsini tapmasını təmin edirlər. Müəssisənin ömürboyu təhsil istiqamətində fəaliyyəti üzrə strategiyasının hazırlanması da bu mərhələyə xas olan xüsusiyyətlərdəndir. Bu mərhələdə artıq ATM rəhbərliyi və universitetdaxili digər maraqlı tərəflər ömürboyu təhsilin əlavə təhsillə məhdudlaşmayan konsepsiya olduğunu başa düşür və həmin istiqamətdə fəaliyyəti də buna əsasən təşkil edirlər. Nəticədə ATM-in müxtəlif fəaliyyət istiqamətlərinin ömürboyu təhsilin təşviqi məntiqi ilə təşkili üçün tədbirlər görülür.

Ömürboyu təhsilin təşkili işinin ən təkmil forması hesab olunan təşkilati mədəniyyətə inteqrasiya mərhələsində müəssisədaxili qərar qəbuletmə proseslərində ömürboyu öyrənmənin təşviqi əsas prinsiplərdən biri kimi rəhbər tutulur və öyrənən yönümlülük həm tədris, həm tələbə dəstək xidmətləri, həm də digər inzibati proseslərin təşkili zamanı prioritetləşdirilir. Bu mərhələdə əsas məqsədlərdən biri təhsilalanlara öz potensiallarını maksimum dərəcədə reallaşdıra bilmələri üçün müəssisədə əlverişli şəraitin yaradılmasıdır. Bu mərhələnin digər bir xarakterik xüsusiyyəti isə ATM-ə alternativ qəbul mexanizmlərinin, o cümlədən əvvəlki təhsilin tanınması yolu

ilə qəbul imkanlarının yaradılmasında müəssisələrin maraqlı və istəkli olmasıdır. Onu da vurğulamaq lazımdır ki, bu mərhələyə çatmış ATM-lərin özləri də mövcud ədəbiyyatda ömürboyu öyrənən müəssisələr olaraq adlandırılır, çünki yeniliklərin tətbiqinə açıqlıq artıq təşkilatın mədəniyyətinə hopur.

Dissertasiyanın üç paraqrafdan ibarət olan II fəsli **"Azərbaycanın ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili sistemi"** adlanır. Bu fəsil tədqiqat çərçivəsində əldə olunmuş məlumatların təhlilinə və nəticələrin axtarışına həsr edilmişdir.

Fəslin ***"Azərbaycanın ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili istiqamətində işin hazırkı inkişaf mərhələsi"*** adlı birinci paraqrafında ömürboyu təhsilin təşkili üzrə ATM-lərin güclü və zəif tərəflərinə, habelə ATM-lər üçün yaradılmış müvafiq imkanlara və mövcud maneələrə dair "SWOT" təhlilinin nəticələri diqqət mərkəzinə gətirilir. Eyni zamanda ömürboyu təhsil istiqamətində işin ATM-lər tərəfindən necə başa düşüldüyü və bu istiqamətdə hansı tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılır. Araşdırmalardan görünür ki, hazırda ATM-lər ömürboyu təhsili, adətən əlavə təhsilə bərabər tutur və həmin istiqamətdə onların fəaliyyəti əsasən qısamüddətli sertifikat və ixtisasartırma proqramları kimi əlavə təhsil xidmətlərinin təşkilindən ibarətdir. Həmin tədbirlərin ATM-in əsas fəaliyyət istiqamətlərindən təcrid olunmuş formada icrası və strateji inkişaf planlarına inteqrasiya olunmamasına tədqiqat zamanı diqqət yetirilmiş, zəruri təkliflər irəli sürülmüşdür. Qeyd edilənlərlə ATM-lərdə ömürboyu təhsilin təşkili işinin üç inkişafı mərhələsi arasında paralellər çəkildikdə, Azərbaycanın ATM-lərindəki vəziyyətlə adaptasiya mərhələsinin xarakterik xüsusiyyətləri arasında nəzərəçarpan oxşarlığı görmək mümkündür. Belə ki, ömürboyu təhsil anlayışının mahiyyətinin tam başa düşülməməsi və onun əksər hallarda əlavə təhsilə bərabər tutulması, həmin istiqamətlə bağlı uzunmüddətli planın olmaması və onun təcrid edilmiş formada inkişafı məhz adaptasiya mərhələsinin xüsusiyyətlərinə aid sayılmışdır.

II fəslin ***"Ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkilinin xarici vasitələrinin təhlili"*** adlı ikinci paraqrafında ömürboyu təhsilin təşkilinə təsir göstərən xarici amillərlə bağlı

mövcud vəziyyət öyrənilir. Bu məqsədlə müvafiq normativ hüquqi bazanın, qeyri-formal və informal təhsil vasitəsilə əldə edilmiş səriştələrin tanınması mexanizmlərinin, təhsildə kredit toplanması və transferi sisteminin tətbiqinin, milli kvalifikasiyalar sisteminin inkişaf səviyyəsinin və məsləhət və dəstək xidmətlərinin təşkili üzrə görülən işlərin, nəticələrin və müşahidə olunan çatışmazlıqların ATM-lərdə ömürboyu təhsilin təşkilinə təsiri araşdırılır.

Tədqiqat belə qənaətə gəlməyə əsas verir ki, mikrokreditlər kimi modul-əsaslı təhsil proqramlarının və distant təhsilin təşkili üzrə normativ-hüquqi bazanın lazımi səviyyədə inkişaf etdirilməməsi, ATM-lərin ömürboyu təhsilin təşkili üzrə imkanlarını məhdudlaşdıran əsas amillər arasındadır. Bunlarla yanaşı, ölkədə ilk dəfə ali təhsil almaq üçün tələbə qəbulunun mərkəzləşdirilmiş qaydada təşkili, tələbə qəbulu prosesinin ATM-lər tərəfindən ömürboyu təhsilin təşkili işinin bir vasitəsi kimi istifadəsini qeyri-mümkün edir. Təkrar ali təhsil almaq məsələləri üzrə ATM-lər qərarvermə sərbəstliyinə malik olsalar da, nəzərə almaq lazımdır ki, ilk ali təhsil olmadan təkrar ali təhsilin alınması mümkün deyildir. Belə olan halda ali təhsilin əlçatanlığının artırılmasına əsasən iki yolla nail olunur: qəbul planlarının artırılması və dövlət sifarişli yerlərin sayının artırılması. Bu isə ali təhsildə iştirakçılığın əsasən şaquli artımına şərait yaradır. Başqa sözlə, qeyri-ənənəvi yaş seqmentinə aid insanların ATM-lərə cəlbini təşviq etmir. Bütün bunların fonunda, ATM-lərə alternativ və ömürboyu təhsili təşviq edən qəbul imkanı olaraq subbakalavrların imtahansız qəbulu mexanizmləri göstərilir. Lakin subbakalavr peşə-ixtisas dərəcəsi verən təhsil pillə və səviyyələrində keyfiyyət təminatı ilə bağlı narahatlıqlar, eləcə də ATM-lərlə subbakalavr dərəcəsini verən müəssisələr arasında qarşılıqlı əlaqələrin istənilən səviyyədə olmaması, subbakalavrların imtahansız qəbuluna ATM-lərin müqavimətini artırır.

Ömürboyu təhsilin təşkilinin digər xarici vasitələri ilə bağlı paraqrafda qeyd olunur ki, qeyri-formal və informal təhsil vasitəsilə qazanılmış səriştələrin tanınması, kredit toplanması və transferi sisteminin tətbiqi və milli kvalifikasiyalar sisteminin inkişafı üzrə ayrı-ayrılıqda mühüm işlər görülsə də, həmin tədbirlərin bir-birinə

inteqrasiyası ömürboyu təhsilin sistemli şəkildə təşkili baxımından istənilən səviyyədə deyildir. Belə ki, əvvəlki təhsilin tanınması yalnız ilk peşə səviyyəsi üzrə tətbiq olunur və tanınma prosesinin nəticəsində fərdlərə sertifikat və ya diplom verilir, yəni akademik kredit verilmir. Bunun əsas səbəblərindən biri peşə təhsilinin ilk iki səviyyəsi üzrə tədrisin kredit əsaslı aparılmamasıdır. Bundan əlavə, akademik kredit bankı formasında vahid kredit reyestrlərinin olmaması və mikrokreditlər kimi qısamüddətli, modul-əsaslı təhsil proqramlarının normativ hüquqi aktlarda nəzərdə tutulmaması, fərdlərə təhsil trayektoriyalarını istədikləri şəkildə qurmağa imkan yaratmır. Milli kvalifikasiya sisteminin inkişafı üzrə də peşə və kvalifikasiya standartlarının hazırlanması və onların reyestrinin istifadəyə verilməsi, AzMKÇ-nin təsdiqi kimi əhəmiyyətli tədbirlər həyata keçirilsə də, həmin tədbirlərin yuxarıda sadalanan digər vasitələrlə inteqrasiyası zəifdir. Burada xüsusilə AzMKÇ-də nəzərdə tutulmasına baxmayaraq, Milli Kvalifikasiyalar Reyestrinin hələ istifadəyə verilmədiyini və bununla da onun qeyri-formal və informal təhsilin tanınması prosesində hazırda rol oynamadığını qeyd etmək lazımdır. Təhsilalanlar üçün məshələt xidmətlərinə gəldikdə isə, hazırda təhsil sistemində kvalifikasiyalararası keçid imkanları məhdud olduğundan, belə xidmətlərin institutsionallaşdırılmış qaydada təşkilinə ciddi tələbat yaranmamışdır.

II fəslin ***"Ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkilinin daxili vasitələrinin təhlili"*** adlı üçüncü paraqrafında ömürboyu təhsilin təşkilin ATM-lərdən asılı olan vasitələri istiqamətində görülən işlər, nəticələr və çatışmazlıqlar üzərində dayanılır. Xüsusilə vurğulanır ki, ömürboyu təhsilin təşkilinin daxili vasitələri ilk növbədə bu və ya digər şəxsi öz təhsilini müvəffəqiyyətlə başa vuranadək onun təhsildə qalmasına, habelə ATM-də yaşanılan təcrübəni müxtəlif yaş qruplarından olan insanlar üçün eyni dərəcədə nəticəyönlü və faydalı etməklə ömürboyu təhsilin təşkilinin ikinci prinsipinə, yəni ali təhsilin cəlbediciliyinin artırılmasına xidmət edir.

Paraqrafda ali məktəblərin strateji əlaqələrinin, tədqiqat fəaliyyətinin, təlim və tədris işinin təşkilinin, idarəetmə mexanizmlərinin və tələbə dəstək xidmətlərinin ömürboyu təhsilin

təşviqi və təşkili üçün nə dərəcədə əlverişli vəziyyətdə olduğu araşdırılır. Təhlilin nəticələrindən görünür ki, tədqiqat fəaliyyəti istiqaməti xaric, yuxarıda verilmiş Şəkil 1.3.1-də göstərilən istiqamətlərin hər biri üzrə ATM-lər tərəfindən mühüm işlər görülməkdədir. Lakin hazırkı inkişaf mərhələsində ATM-lər ömürboyu təhsili əlavə təhsilə bərabər tutduqlarından, Şəkil 1.3.1-də göstərilən istiqamətlərə ömürboyu təhsilin təşkili vasitəsi kimi yanaşmırlar və həmin tədbirlərin ömürboyu təhsilin təşviqi və təşkili istiqamətindəki potensialından kifayət qədər faydalanmırlar.

"ATM-lərdə ömürboyu təhsilin təşkili üzrə işin sistemi"nin öyrənildiyi dissertasiya işinin **əsas nəticələri** aşağıdakı müddəalarda ümumiləşdirilmişdir:

1. Tədqiqatdan görünür ki, "bilik, bacarıq, kompetensiya (səriştə) və ya kvalifikasiyaların təkmilləşdirilməsi ilə nəticələnən ömürboyu təlimin (öyrənmənin) bütün növləridir" kimi tərif olunan, təhsilin hər hansı bir forması, baş verdiyi məkan və xidmət göstərdiyi məqsədlə məhdudlaşmayan ömürboyu təhsil terminindən fərqli olaraq, əlavə təhsil formal təhsilin bir növü kimi götürülür və onun təşkilinə dair səciyyəvi tələblər mövcuddur. Belə ki, fərdin əlavə təhsil proqramında iştirak edə bilməsi üçün onun ali, orta ixtisas və peşə təhsili pillələrinin hər hansı birini bitirməsi haqqında dövlət sənədi olmalıdır. Bununla yanaşı, əlavə təhsil proqramları yalnız təhsil müəssisələri və əlavə təhsilin təşkilinə lisenziya almış digər müəssisələrdə, müvafiq təhsil proqramları əsasında təşkil oluna bilər. Ömürboyu təhsil termini isə öyrənmənin bütün növlərini (formalarını) əhatə etməklə təhsilin hər kəs üçün əlçatan olmasını və təhsil sistemlərinin bu məqsədlə təşkilini təşviq edir.

2. Ömürboyu təhsili aktual edən və ATM-lərdə ömürboyu təhsilin təşkilinə əhəmiyyətli təsir göstərən sosial-iqtisadi kontekstin və bununla bağlı Azərbaycandakı vəziyyətin təhlili nəticəsində aşkara çıxarılmışdır ki, ömürboyu təhsil anlayışı inkişaf etmiş Qlobal Şimal ölkələrində, sürətli iqtisadi artım və bilik iqtisadiyyatına keçid nəticəsində yüksəkixtisaslı kadrlara artan tələbat, habelə mənfi demoqrafik proseslər fonunda irəli sürülmüş və getdikcə aktuallıq qazanmışdır. Həmin ölkələrdə baş verən ali təhsin kütləviləşməsi isə, ATM-lərdən ömürboyu təhsilin təminatçıları kimi gözləntiləri artırmış

və onların roluna dair baxışı formalaşdırmışdır. Azərbaycanda isə, ömürboyu təhsilin mövcud kadr bazasının əmək bazarının tələblərinə lazımınca cavab verməməsi fonunda təşviq olunduğu aşkara çıxmışdır. Lakin inkişaf etmiş Qlobal Şimal ölkələrindən fərqli olaraq, Azərbaycanın əmək bazarında aşağı ixtisaslı kadrların çoxluq təşkil etməsi və məşğulluq imkanlarının əsasən əmək tutumlu, lakin aşağı məhsuldarlığı ilə səciyyələnən sahələrdə cəmlənməsi kimi amillər ömürboyu təhsili təmin edən təhsil sisteminə çox da böyük tələbatın olmamasını deməyə əsas vermişdir. Bundan əlavə, ölkədə ali təhsilin hələ tədricən kütləviləşməyə doğru istiqamət alması və ATM-lərdə təhsilin keyfiyyətinin təmin edilməsi kimi çağırışlar, ömürboyu təhsilin təmin edilməsi yönündə gözləntilərin məhdud xarakter daşıması ilə nəticələnmişdir.

3. Ali təhsildə ömürboyu təhsilin təşkilinin prinsip, komponent və vasitələri müəyyən olunmuşdur. Ali təhsildə ömürboyu təhsilin təşkilinin əsas prinsiplərinə ATM-lərdə təhsilin bütün əhali qrupları üçün əlçatanlığının və cəlbediciliyinin artırılması aid edilmişdir. Bu məqsədlə həyata keçirilən tədbirlər iki komponentə ayrılmışdır: xarici vasitələr, yəni ATM-lərin qərarvermə səlahiyyətlərindən kənar vasitələr və daxili vasitələr. Sonuncuların həyata keçirilməsi ATM-lərdən asılıdır. Ömürboyu təhsilin təşkilinə təsir edən xarici amillərə əlverişli normativ hüquqi bazanın mövcudluğu, qeyri-formal və informal təhsilin nəticələrinin tanınması mexanizmlərinin yaradılması və işləkliyi, kredit toplanması və transferi sisteminin tətbiqi, milli kvalifikasiyalar sisteminin inkişafı və təhsil almaq istəyən şəxslər üçün məsləhət və dəstək xidmətlərinin təklif edilməsi aiddir. Daxili amillərə isə, ATM-lər tərəfindən müxtəlif maraqlı tərəflərlə strateji əlaqələrin formalaşdırılması, tədqiqat fəaliyyətinin genişləndirilməsi və kommersiyalaşdırılması, təlim və tədrisin təşkilində yeniliklər, ATM-lərin cəlbedici öyrənmə məkanlarına çevrilməsini təşviq edən idarəetmə yanaşmaları və tələbələr üçün dəstək xidmətlərinin yaradılması aiddir. Qeyd olunanlarla yanaşı, paraqrafda ATM-lərdə ömürboyu təhsil işinin üç inkişaf mərhələsi müəyyənləşdirilmişdir. Həmin inkişaf mərhələləri müvafiq ədəbiyyatda adaptasiya, təşkilata inteqrasiya və təşkilati mədəniyyətə inteqrasiya olaraq adlandırılmışdır.

4. ATM-lərin ömürboyu təhsil istiqamətində işi necə başa düşdüklərinin və bu istiqamətdə hansı tədbirlər həyata keçirildiyinin təhlili çərçivəsində əldə olunan nəticələr belə bir fikir formalaşdırmağa əsas vermişdir ki, ömürboyu təhsilin təşkili işi beynəlxalq ədəbiyyatda adaptasiya adlanan ilkin inkişaf mərhələsindədir. Bunu deməyə ATM-lərin ömürboyu təhsili əlavə təhsilə bərabər tutmaları və bu istiqamətdə işləri bir qayda olaraq qısamüddətli sertifikat və ixtisasartırma proqramları ilə məhdudlaşdırmaları, ömürboyu təhsil istiqaməti ilə bağlı hər hansı bir uzunmüddətli planlarının mövcud olmaması və həmin istiqamətin ATM-in ənənəvi fəaliyyət istiqamətlərindən təcrid edilmiş formada inkişafı əsas vermişdir.

5. Normativ hüquqi baza ilə bağlı müəyyən edilmişdir ki, həmin baza ömürboyu təhsilin təşkili istiqamətində ATM-lərə imkanlar yaratdığı kimi, maneələr də törədir və hazırda normativ hüquqi aktlardakı tənzimləmələrin ömürboyu təhsilin təşkilinə məhdudlaşdırıcı xarakteri daha aydın görünür. Bunu xüsusilə ATM-lərin əlçatanlığına bilavasitə təsir göstərən tələbə qəbulu proseslərinə aid etmək mümkündür. Belə ki, ali təhsilə ilk dəfə qəbul prosesinin mərkəzləşdirilmiş qaydada təşkili, tələbə qəbulu prosesinin ATM-lər tərəfindən ömürboyu təhsilin təşkili vasitəsi kimi istifadəsinə imkan vermir. Başqa sözlə, ATM-lər tələbə qəbulu proseslərində iştirak etmədiklərindən, bu proseslərdən ali təhsilin əlçatanlığının artırılması məqsədilə faydalana bilmirlər.

Təkrar ali təhsilə tələbə qəbulunun aparılmasının ATM-lərə verilməsi müsbət addım kimi qiymətləndirilsə də, nəzərə almaq lazımdır ki, ilk ali təhsil olmadan təkrar ali təhsil qeyri-mümkündür. Mövcud vəziyyətdə ilk dəfə ali təhsil almaq üçün ATM-lərə yeganə alternativ qəbul mexanizmi kimi subbakalavr peşə-ixtisas ixtisas dərəcəsinə yiyələnmiş şəxslərin mərkəzləşdirilmiş imtahanda iştirak etmədən, müsabiqə yolu ilə qəbul imkanı qalır. Lakin subbakalavr peşə-ixtisas dərəcəsi verən təhsil pillə və səviyyələrində keyfiyyət təminatı ilə bağlı ATM-lərin narahatlıqları, habelə həmin dərəcəni verən müəssisələrlə ATM-lər arasında qarşılıqlı əlaqələrin lazımi səviyyədə olmaması, subbakalavrların imtahansız qəbuluna ATM-lərin müqavimətini artırır. Normativ hüquqi baza ilə bağlı məsələlər

təkcə tələbə qəbulu prosesləri ilə məhdudlaşmır. Belə ki, müasir dövrdə ATM-lərin cəlbedici öyrənmə mərkəzlərinə çevrilməsinə töhfə verən distant təhsil və mikrokredit proqramlarının yerli ATM-lər tərəfindən sistemli şəkildə təşkil olunmamasına səbəb kimi belə proqramlara dair normativ hüquqi bazanın kifayət qədər inkişaf etdirilməməsi göstərilmişdir. Digər tərəfdən, tədqiqat nəticəsində normativ hüquqi baza ilə bağlı müsbət hal kimi aşkar edilmişdir ki, subbakalavr peşə-ixtisas dərəcəsinə yiyələnmiş şəxslərin ATM-lərə qəbulu zamanı onların müvafiq ixtisaslar üzrə əvvəlki təhsilləri ilə uyğun gələn fənlərdən azal edilməsi tələbi ömürboyu təhsili təşviq edən amil kimi qiymətləndirilməlidir, çünki bu həmin fərdlərə ali təhsili daha qısa müddətdə başa vurmaq imkanı verir. Eyni mexanizm təkrar ali təhsilə münasibətdə də yaradılmışdır.

ATM-lərdə ömürboyu təhsil sisteminin digər xarici vasitələri ilə bağlı məlum olmuşdur ki, qeyri-formal və informal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması, kredit toplanması və transferi sisteminin tətbiqi və milli kvalifikasiyalar sisteminin inkişafı üzrə ayrı-ayrılıqda mühüm tədbirlərin görülməsinə başlanılsa da, həmin tədbirlərin bir-birinə inteqrasiyası arzuolunan səviyyədə deyil. Belə ki, əvvəlki təhsilin tanınması yalnız ilk peşə səviyyəsi üzrə tətbiq olunur və tanınma prosesinin nəticəsində fərdlərə sertifikat və ya diplom verilir, yəni, akademik kredit təqdim edilmir. Bunun əsas səbəblərindən biri peşə təhsilinin ilk iki səviyyəsi üzrə tədrisin kredit əsaslı aparılmamasıdır. Bundan əlavə, akademik kredit bankı formasında vahid kredit reyestrlərinin olmaması və qısamüddətli, modul-əsaslı mikrokredit proqramlarının təklif edilməməsi, fərdlərə təhsil trayektoriyalarını istədikləri şəkildə qurmağa və tədricən yüksək səviyyəli formal təhsil kvalifikasiyasına yiyələnməyə imkan yaratmır.

Milli kvalifikasiya sisteminin inkişafı üzrə də peşə və kvalifikasiya standartlarının hazırlanması və onların reyestrinin istifadəyə verilməsi, AzMKÇ-nin təsdiqi kimi əhəmiyyətli tədbirlər həyata keçirilsə də, həmin tədbirlərin də ömürboyu təhsil sisteminin digər elementləri ilə inteqrasiyası zəifdir. Burada xüsusilə AzMKÇ-də nəzərdə tutulmasına baxmayaraq, Milli Kvalifikasiyalar Reyestrinin hələ istifadəyə verilmədiyini və bununla da, onun qeyri-

formal və informal təhsilin tanınması prosesində hazırda rol oynamadığını qeyd etmək lazımdır. Təhsilalanlar üçün məshələt xidmətlərinə gəldikdə isə, hazırda təhsil sistemində kvalifikasiyalararası keçid imkanları məhdud olduğundan, belə xidmətlərin institutsionallaşdırılmış qaydada təşkilinə ciddi tələbat yaranmamışdır. Beləliklə, tədqiqatdan görünür ki, Azərbaycanda ömürboyu təhsili təmin edən təhsil sisteminin formalaşdırılması istiqamətində işlər hələ inkişafının ilkin mərhələsindədir və bu da ATM-lərin ömürboyu təhsilin təşkili istiqamətində görə biləcəkləri işlərin əhatə dairəsini məhdudlaşdırır.

6. Ömürboyu təhsilin təşkili sisteminin daxili vasitələrinin təhlili nəticəsində gəlinən qənaətə əsasən, tədqiqat fəaliyyətinin institutsionallaşdırılması və kommersiyalaşdırılması istiqaməti xaric, maraqlı tərəflərlə strateji əlaqələrin qurulması, təlim və tədris fəaliyyətinin təşkilində yeniliklərin tətbiqi, ATM-lərin cəlbedici öyrənmə mərkəzlərinə çevrilməsi üzrə yeni idarəetmə yanaşmalarının tətbiqi və tələbə dəstək xidmətlərinin yaradılmaı istiqamətində işlər görülür. Lakin hazırda ATM-lər ömürboyu təhsili əlavə təhsilə bərabər tutduqlarından və bu sahəyə məhdud perspektivdən yanaşdıqlarından, yuxarıda sadalanan istiqamətdə gördükləri işlərə ömürboyu təhsilin təşkilinə fayda verən amil kimi baxmırlar və kompleks yanaşma tətbiq etmirlər. Nəticə etibarilə həmin işlər ATM-lərin cəlbedici ömürboyu təhsil mərkəzlərinə çevrilməsinə xidmət göstərsə də, belə tədbirlərin bir-biri ilə daha yaxşı əlaqələndirilməsi və ömürboyu təhsil sisteminin yaradılmasına töhfə verən amillər kimi qəbul edilməsi, onların nəticəliliyini daha da artıracaqdır.

Tədqiqat nəticələri əsasında ATM-lərdə ömürboyu təhsilin təşkili üzrə işin sisteminin inkişaf etdirilməsi üçün **təkliflər** formalaşdırılmışdır.

**ATM-lərdə ömürboyu təhsilin təşkilinin xarici vasitələri ilə bağlı:**

1. Qeyri-formal və informal təhsil vasitəsilə əldə olunmuş səriştələrin tanınması mexanizmlərinin peşə təhsili pilləsinin digər səviyyələrində və orta ixtisas təhsili pilləsində tətbiqi imkanlarının və

bununla bağlı qabaqcıl təcrübələrin öyrənilməsi və bu istiqamətdə normativ hüquqi bazanın yaradılması məsləhətdir.

2. Peşə təhsilinin ilk peşə təhsili və texniki peşə təhsili səviyyələrində də tədris prosesinin kredit sistemi əsasında təşkili məqsədəuyğun olardı.

3. Qeyri-formal və informal təhsilin tanınması prosesinin nəticələri əsasında fərdlərə sertifikat və diplomla yanaşı, akademik kreditlərin verilməsi də nəzərdən keçirilə bilər (belə tanınma proseslərinin tətbiq olunduğu təhsil pilləsi və səviyyəsində tədris kredit sistemi əsasında təşkil olunduğu təqdirdə). Bununla da fərdlərə akademik kreditlər toplayaraq tədricən daha yüksək səviyyəli kvalifikasiyalar əldə etmə imkanının yaradılması təklif olunur. Akademik kreditlərin verilməsi, eyni zamanda, bilik və bacarıqların qismən tanınması (müvafiq ixtisasın müəyyən modulları üzrə) prosesinin də dəyərini artıracaqdır, çünki fərdlər müəyyən akademik kreditlər əldə edərək gələcəkdə onu tamamlamaq imkanına sahiblənəcəklər.

4. Qeyri-formal və informal təhsilin tanınması mexanizmlərindən istifadənin stimullaşdırılması məqsədilə belə mexanizmlərin mövcudluğu və yaratdığı üstünlüklər barədə əhali arasında məlumatlılıq səviyyəsinin yüksəldilməsi üçün maarifləndirmə tədbirlərinin görülməsi, həmçinin belə mexanizmlərin ödənişsiz əsaslarla təşkili nəzərdən keçirilə bilər.

5. ATM-lərin qısamüddətli, modul-əsaslı, akademik kredit verən və mikrokreditlər kimi tanınan təhsil proqramları həyata keçirə bilmələri üçün müvafiq normativ hüquqi aktlarla zəruri bazanın formalaşdırılması lazım bilinir.

6. Fərdlərin müxtəlif təhsil formaları vasitəsilə topladıqları kreditlərin (qeyri-formal və informal təhsilin tanınması nəticəsində akademik kreditlər veriləcəyi və mikrokreditlərin təklif edilə bilinməsi üçün normativ hüquqi baza formalaşdırılacağı təqdirdə) vahid reyestr qeydiyyatının aparılması və fərdlərin öz inkişaf ehtiyaclarına uyğun formada təhsil proqramlarını təşkil etmələri üçün (tədricən daha yüksək səviyyəli kvalifikasiyalar əldə etmə məqsədilə) akademik kredit bankı kimi mexanizmlərin pilot layihə formasında

sınaqdan keçirilməsi və bu istiqamətdə geniş təcrübəyə malik ölkələrin təcrübələrinin öyrənilməsi məqsədəuyğundur.

7. Dövlət tərəfindən tanınan bütün yerli təhsil proqramları və kvalifikasiyalar, habelə həmin kvalifikasiyaları təqdim etməyə səlahiyyətli qurumlar barədə məlumatları özündə birləşdirən Milli Kvalifikasiyalar Reyestrinin yaradılması üzrə işlərin yekunlaşdırılması və reyestrin istifadəyə verilməsi lazımdır. Həmin reyestr, həmçinin qeyri-formal və informal təhsil formaları vasitəsilə səriştələr qazanmış və onları tanıtdırmaq istəyən şəxslərə də istiqamət verərək AzMKÇ-nin qeyri-formal və informal təhsilin tanınması proseslərindəki rolunu gücləndirmiş olacaqdır.

8. AzMKÇ-nin ömürboyu təhsilin təşkilində işlək bir vasitəyə çevrilməsi üçün onun məzmununun təkmilləşdirilməsi, o cümlədən sənədə kvalifikasiyalararası keçid imkanlarının tənzimlənməsinə dair müddəaların daxil edilməsi və səviyyə deskriptorları arasında fərqlərin daha anlaşılan edilməsi, məsələlərinə baxılması məqsədəmüvafiqdir.

9. Peşə, orta ixtisas və ali təhsil pillələrində təhsil proqramlarının hazırlanması zamanı peşə və kvalifikasiya standartlarından istifadənin təşviqi məqsədilə təhsil müəssisələrinin həmin standartlar və Peşə və Kvalifikasiya Standartlarının Reyestri barədə məlumatlılıq səviyyəsinin artırılması yaxşı olardı. Bundan başqa, hazırda adıçəkilən standartlar və Reyestrdən məhdud istifadənin səbəblərinin öyrənilməsi lazım bilinir.

10. Distant təhsilin təşkili və tanınması üzrə normativ hüquqi bazanın formalaşdırılması və bununla da ATM-lər tərəfindən distant təhsil imkanlarının genişləndirilməsinə əlverişli şəraitin yaradılması təqdirəlayiq bir addım olacaqdır.

11. İlk dəfə ali təhsil almaq üçün ATM-lərə qəbul sisteminin mərkəzləşdirilmiş qaydada təşkilinin saxlanılması şərtilə (belə sistemin tətbiqinədək tələbə qəbulu proseslərində müşahidə olunan mənfi halların təkrarlanmasının qarşısını almaq məqsədilə), ali təhsil almaq istəyən şəxslərin maraqlarına və profillərinə uyğun ixtisaslara yerləşdirilməsi mərhələsində ATM-lərin potensial iştirak formalarına dair araşdırmaların aparılması və təkliflərin irəli sürülməsi

məsləhətdir. Əsas məqsəd fərdlərin maraqlarına və profillərinə uyğun gəlməyən ixtisaslarda təhsilalma hallarının azaldılması olmalıdır.

12. Formal təhsilin ayrı-ayrı pillələri və səviyyələri arasında qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə, müvafiq ixtisaslar üzrə gözlənilən təlim nəticələri və kurikulumların bir-birini tamamlamasına və nəticə etibarilə öncəki təhil səviyyəsində (və ya pilləsində) toplanılmış kreditlərin növbəti səviyyədə nəzərə alınması prosesinin maneəsiz icrasına şəraitin yaradılması lazım bilinir.

13. Ali təhsil pilləsinə münasibətdə müşahidə olunduğu kimi, peşə təhsili və orta ixtisas təhsili pillələrində də təhsilin keyfiyyətinin təminatı məsələlərinə diqqətin artırılması zəruri olardı. Bu, eyni zamanda, subbakalavrların imtahansız qəbuluna və onların qazantığı akademik kreditlərin tanınmasına ATM-lərin müqavimətinin azaldılmasına xidmət edərdi.

**ATM-lərin özlərindən asılı olan fəaliyyət istiqamətləri ilə bağlı:**

1. Ömürboyu təhsilin təşkili işinə ATM-lərin təşkilati yanaşma və baxışlarının genişləndirilməsi məqsədilə ATM-lərin rəhbər, professor-müəllim və köməkçi heyətinin müvafiq təlim və inkişaf proqramlarına cəlb edilməsi məsləhətdir.

2. Ömürboyu təhsil istiqamətinin ATM-lərin ənənəvi fəaliyyət istiqamətlərinə inteqrasiyasına dair məsələləri də özündə ehtiva edən, ömürboyu təhsil istiqamətinə dair uzunmüddətli inkişaf planının formalaşdırılması və ya bu istiqamət ilə bağlı məsələlərə ATM-lərin strateji inkişaf planlarında daha geniş yer verilməsi lazım bilinir.

3. ATM-lərin təklif etdikləri qısamüddətli kursları müvəffəqiyyətlə başa vurmuş şəxslər sonrakı dövrdə həmin ATM-in müvafiq ixtisaslarına qəbul olunarkən (bakalavriat və ya magistratura üzrə), onların həmin kurslardan əldə etdikləri sertifikatlar nəzərə alınaraq, müəyyən kurslardan (əvvəlki kursun məzmunu ilə uyğun gələn) azad edilməsi üçün mexanizmlərin yaradılması imkanlarının dəyərləndirilməsi məqsədəuyğundur. Bu həm ATM-lərin təklif etdiyi qısamüddətli təhsil proqramlarının dəyərini artıracaq, həm də ömürboyu təhsil adı altında təklif olunan kursların və onları təşkil edən struktur bölmələrin ATM-in ənənəvi fəaliyyət istiqamətləri ilə daha sıx inteqrasiyasına yol açacaqdır.

4. Təhsil proqramlarının hazırlanması zamanı işəgötürənlərin rəyinin öyrənilməsi praktikasının bütün fakültələr üzrə tətbiqinə diqqətin yetirilməsi və bu işin institutsionallaşdırılması yaxşı olardı.

5. Əmək bazarının ehtiyaclarının öyrənilməsi, məzunların hazırlıq səviyyəsindən işəgötürənlərin nə dərəcədə razı qaldığı və kadr hazırlığı ilə əlaqədar hansı məsələlərin iş dünyasının narazılığına səbəb olduğu istiqamətində ATM-lər tərəfindən dövri araşdırmaların aparılması və bu işə keyfiyyət təminatı sisteminin əsas elementlərindən biri kimi yanaşılması lazımdır.

6. ATM-lərdə daxili keyfiyyət təminatı sistemlərinin qurulması sahəsinə diqqətin daha da artırılması və ATM-in bütün fəaliyyət istiqamətləri üzrə keyfiyyət təminatı alətlərinin qurularaq işlək vəziyyətə gətirilməsi, eləcə də keyfiyyət təminatı funksiyasının rolu barədə ATM-in professor-müəllim və köməkçi heyətinin məlumatlılıq səviyyəsinin artırılması faydalı olardı.

7. Professor-müəllim heyətinin peşəkar hazırlıq səviyyəsinin, o cümlədən onların didaktik bacarıqlarının, rəqəmsal savadlılığının, elmi-tədqiqat fəaliyyətinin və şəxsi inkişafları ilə bağlı digər sahələrin, daha da yüksəldilməsi ilə bağlı məsələlərin ATM rəhbərliyinin gündəliyində mühüm yer tutması məsləhətdir.

**Dissertasiyanın məzmunu, əsas elmi ideyaları və nəticələri müəllifin aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Ömürboyu təhsil sisteminin gücləndirilməsində ali təhsil müəssisələrinin rolu // Doktorantların və gənc tədqiqatçıların XXV respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, – 23-24 noyabr, – 2022, – s.166-170.
2. Azərbaycanda ömürboyu təhsil istiqamətində işin təşkilinə təsir edən kontekstual faktorlar // Doktorantların və gənc tədqiqatçıların XXVI respublika elmi konfransının materialları, – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, – 17-18 noyabr, – 2023, – s.185-187.
3. Ali təhsilin əlçatanlığının artırılması ömürboyu təhsil infrastrukturunun formalaşdırılması aləti kimi // – Bakı:

Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, – 2024. Cild 91, № 6, – s. 107-110.

4. Ali təhsil müəssisələrində ömürboyu təhsil sisteminin yaradılmasının aktual məsələləri // – Bakı: Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri (humanitar və ictimai elmlər), – 2024. № 4, – s. 86-91.
5. İqlim dəyişmələri ilə bağlı məsələlərin ömürboyu təhsil infrastrukturunun yaradılması və işinin təşkili zamanı nəzərə alınması // Doktorantların və gənc tədqiqatçıların XXVII respublika elmi konfransının materialları, – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, – 10-11 dekabr, – 2024, – s.554-559.
6. Ali pedaqoji təhsil ömürboyu öyrənən vətəndaşların yetişdirilməsi aləti kimi // "Müasir ali təhsildə məzmun və keyfiyyət məsələləri: Dünya təcrübəsi və Azərbaycan" mövzusunda II beynəlxalq elmi konfransının materialları, – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, – 13-14 dekabr, – 2024, – s. 415-416.
7. Ömürboyu təhsil infrastrukturunun təşkili məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi // "Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: Reallıqlar və çağırışlar" mövzusunda II beynəlxalq elmi konfransının materialları, – Mingəçevir: Mingəçevir Dövlət Universiteti, – 13-14 dekabr, – 2024, – s. 334-337.
8. Kredit toplanması və transferi sisteminin ömürboyu təhsili təmin edən təhsil infastrukturunun təşkili baxımından əhəmiyyəti // – Bakı: Azərbaycan Respublikasının Təhsil İntitutunun Elmi əsərləri, – 2025. Cild 92, № 1, – s. 117-120.
9. Ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun əsas elementləri və onların tətbiqi ilə bağlı Azərbaycandakı vəziyyət // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, – 2025. Cild 22, № 1, – s. 59-63.
10. Ali təhsil müəssisələrində ömürboyu təhsilin təşkili işinin institutsionallaşdırılmasına şərait yaradan amillər // – Bakı: Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal, – 2025. № 1. – s. 12-22.

11. Lifelong learning instituríons of higher education of Azerbaijan // Universidad Y Sociedad, Scientific journal of the University of Cienfuegos, – 2025. 17 (2), – p. 1-7.
12. Governing lifelong learning education infrastructure: Key challenges and considerations // Materials of the 54th International Scientific and Practical Conference on "Modern aspects of modernization of science: State, problems, development trends", – Klagenfurt: – March 7, – 2025, – p.80-82.

Dissertasiyanın müdafiəsi 23 iyun 2026-cı il tarixində saat 14:00 Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti küçəsi 41 (Neftçilər kampusu).

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Xəzər Universitetinin rəsmi internet saytında (https://www.khazar.org) yerləşdirilmişdir.

Avtoreferat 14 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb:  05.05.2026

Kağızın formatı: A5

Həcm: 44755 işarə

Tiraj: 100